# MƏMMƏDOV AYTƏKİN İSRAİL OĞLU



Məmmədov Aytəkin İsrail oğlu 29 may 1967-ci ildə Gədəbəy rayonunun Göyəli kəndində anadan olmuşdur. 1974-cü ildə orta məktəbin birinci sinfinə getmiş və 1984-cü ildə orta təhsilini başa vurmuşdur. Elə həmin il texniki-peşə məktəbində rəngsaz peşəsinə yiyələnmişdir. 1985-ci ildə hərbi xidmətə çağırılmış və Əfqanıstan müharibəsində iştirak etmişdir. 1987-ci ildə hərbi qulluğunu başa vurduqdan sonra Bakıya gələrək tikinti idarəsində öz peşəsi üzrə işləməyə başlamışdır. Erməni yaraqlıları Azərbaycana qarşı elan olunmamış müharibəyə başlayanda o da 1991-ci ilin fevral ayında Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinə daxil olur. A.Məmmədov 1991-ci ilin aprel ayında Xanlar rayonunun erməni yaraqlıları tərəfindən hücuma məruz qalan kəndlərinə ezam olunur. Rayonun Quşçu kəndi də bu sırada idi. Düşmən, demək olar ki, bu kəndi hər gün atəşə tutur, camaatı vahimə içində saxlayırdı. Aytəkin döyüş yoldaşları ilə kəndin qırağında özünə mövqe seçir. Düşmənin isə hücumları ara vermirdi. Aytəkin pulemyotu işə salaraq erməniləri geri çəkilməyə məcbur edir. O, bu döyüşdə ağır yaralanır. Onun həyatını xilas etmək mümkün olmur. Göyəli kənd qəbristanlığında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Məmmədov Aytəkin İsrail oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Göyəli kənd orta məktəbi onun adını daşıyır. Büstü qoyulmuşdur. Yasamal rayonundakı 38 saylı tam orta məktəb 1994-cü ildən etibarən Milli Qəhrəmanın adını daşıyır.